Respublika.- 2019.- 15 iyun.- S.8



*17 iyun Tibb İşçilərinin*

# İnsanların sağlamlığı keşiyində

**Son 10 ildə binaları istifadəyə yararsız olduğundan 21 tibb müəssisəsi yenidən inşa edilmiş və təmirə ehtiyacı olduğundan 79-u əsaslı təmir olunmuşdur. Hazırda 2 xəstəxananın binası yeni inşa edilir. Əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə yeni tikilmiş və təmir olunmuş tibb müəssisələri xidmət sahələrinə uyğun olaraq müasir standartlara cavab verən tibbi cihaz və avadanlıqlarla təmin olunmuşlar.**

BBSİ-nin tibb müəssisələrində çalışan həkimlərin sayı hazırda 7106, orta tibb işçilərinin sayı isə 11439 nəfərdir. Tibbi kadrların elektron registri var və bütün əmrlər elektron qaydada verilir. Həkimlərin işə qəbulu mərkəzləşmiş qaydada vakansiya olan yerlərə elan verməklə və imtahan yolu ilə həyata keçirilir, həkimlər 5 ildən bir sertifikasiya imtahanı verir və bu ildən davamlı tibbi təhsilin tətbiqi ilə əlaqədar həkimlərimizə hər il təkmilləşdirmə kursu keçməklə öz biliklərini artırmaq imkanı verilmişdir. Yəni həkimə olan tələbat daim diqqət mərkəzindədir. Bu gün stasionar tibb müəssisələrində həkim çatmazlığı yoxdur, lakin poliklinikalarda həkim psixiatr, vərəm dispanserlərində isə həkim ftiziatrlara tələbat vardır.

Səhiyyə Nazirliyində artıq 5 ildən çoxdur ki, 24 saat ərzində vətəndaşların telefon müraciətlərini qəbul edən, onları cavablandıran qaynar xətt və vətəndaşları qəbul edən elektron səhiyyə fəaliyyət göstərir. Onların müraciətləri həkim mütəxəssislərin iştirakı ilə araşdırılaraq ya yerindəcə məsləhət verərək müvafiq qaydada həll olunur və ya vətəndaşın ərizəsi qəbul edilərək sonradan araşdırma aparılır. Müraciətlər əsassız və əsaslı olmaqla qruplaşdırılır. Əsassız müraciətlər daha çoxdur, bu çox vaxt vətəndaşın öz hüquqları barədə məlumatsız olması ilə əlaqədar olur. Məsələn: imtiyazlı qrupa aid dərmanlar sırasında adı olmayan dərmanların tələb edilməsi, orqan köçürülməsi əməliyyatları ilə bağlı və s. Əsaslı şikayətlər hüquq şöbəsinin və həkim məsləhətçilərin iştirakı ilə ətraflı araşdırılaraq cavablandırılır.

Son 10 ildə Səhiyyə Nazirliyi tərəfindən aparılan islahatlardan biri də səmərəsiz fəaliyyət göstərən stasionar çarpayılarının ixtisar edilməsi, bütün tibb müəssisələrində stasionar müalicə alan xəstələrin elektron registrinin yaradılmasıdır. Planlı xəstə yalnız qeydiyyatda olduğu poliklinikanın göndərişi əsasında tibbi göstəriş olduğu halda, stasionar müalicəyə və poliklinikada aparılması mümkün olmayan əlavə müayinənin aparılması məqsədilə müayinəyə göndərilir. Təcili xəstələr həm özü, həm də təcili yardıma müraciət etməklə hospitallaşdırılır. TTTYS-nın operativ şöbəsinin profil üzrə xəstəxanalarda olan boş çarpayılar barədə gündəlik məlumatı vardır. Bu ağır xəstənin profil üzrə vaxt itirmədən hospitalizasiya etməsi üçündür. Son illər stasionarda çarpayı fondunun işi 60% təşkil edir. 1 xəstənin orta qalma müddəti orta hesabla 7-8 gündür.

Yeni kəskin dövr keçdikdən sonrakı dövrdə də xəstələrə ambulator qaydada nəzarət təşkil edilir. Məqsədimiz stasionarın yükünü azaltmaq, ağır xəstələrin hospitalizasiyasında gecikmə hallarının qarşısını almaqdır. Hətta kimsəsiz insanların belə tibbi yardıma ehtiyacı olduqda stasionarda yerləşdirilməsi üçün BŞX-lara müvafiq tapşırıq verilmişdir.

Respublikamızın Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2012-ci ildən etibarən əhali arasında aparılan tibbi profilaktik müayinələr, o cümlədən “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23.04.2014-cü il tarixli 109 nömrəli Qərarının və “Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya”sına əsasən Səhiyyə Nazirliyinin 07.03.2016-cı il tarixli 16 nömrəli əmri ilə təsdiq olunmuş Fəaliyyət Planının icrası əhalinin sağlamlığının qorunmasına və gənc nəslin sağlam böyüməsinə yönəldilmiş dövlət qayğısıdır. Aparılan müayinələr nəticəsində son illər Bakı şəhəri üzrə ambulator-poliklinik müəssisələrə müraciətlər və xəstəliklərin, xüsusilə də qeyri-infeksion xəstəliklərin aşkarlanma sayı artmışdır.

Bakı şəhərində aparılan tibbi profilaktik müayinələr zamanı faktiki yaşayan böyük yaş əhalinin 1380631 nəfəri (2018-ci il 1412522-67% ), yəni 64% tibbi müayinədən keçmiş, aşkar edilən ilkin xəstəliklərin sayı demək olar ki, 2018-ci illə müqayisədə eyni səviyyədə (5%-dən 4%-dək azalma) qalmışdır. Aşkar edilmiş xəstələrdən dispanser müşahidə tələb olunan 8977 nəfər 16.1% dispanser qeydiyyata alınmış, 8.3%-i stasionar müalicəyə göndərilmiş, qalanları isə ambulator müalicəyə (75.6%) cəlb edilmişdir.

“Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23.04.2014-cü il tarixli 109 nömrəli Qərarının icrasını təmin etmək məqsədilə ərazi uşaq poliklinikalarının həkim briqadaları tərəfindən ilin əvvəlində tərtib olunmuş plana əsasən uşaqların tibbi müayinələri də aparılır. Hazırda Bakı şəhərində yaşayan uşaq əhalisinin 40%-i icbari tibbi müayinədən keçirilmişdir. Aşkar edilən xəstəliklər arasında əsasən alimentar anemiyalar, yuxarı tənəffüs yollarının xəstəlikləri, stomatoloji və göz xəstəlikləri üstünlük təşkil edir. Ərazi uşaq poliklinikaları tərəfindən bu uşaqların dispanser müşahidəsi təşkil edilir və tibbi göstəriş olduğu hallarda əlavə müayinələr aparılır. Aparılmış müayinələr və onların nəticələri barədə məlumatlar uşaqların Elektron Sağlamlıq Kartı sisteminə daxil edilir.

Aparılan profilaktik tədbirlər nəticəsində uşaq poliklinikaları ilə dispanser xəstə uşaqların registr mərkəzləri arasında əlaqəli iş gücləndirilmiş, nəticədə uşaq poliklinikaları tərəfindən cari ilin müvafiq dövrü ərzində 4259 nəfər uşaq ixtisaslaşdırılmış yardım və reabilitasiya məqsədilə mərkəzlərə göndərilmişdir.

Bununla yanaşı, uşaqlar arasında ilkin əlillik göstəricisi də azalmışdır. Belə ki, yekun statistik hesabatlara əsasən 2016-cı ildə müavinət təyin olunmuş ilkin xəstə uşaqların sayı 1312 idisə, 2017-ci ildə 2 dəfə azalaraq 658, 2018-ci ildə 609, cari ilin 3 ayı ərzində isə 67 nəfər olmuşdur.



Böyük yaş əhali arasında 2016-cı ildə 4567, 2017-ci ildə 4664, 2018-ci ildə 3607 nəfərə ilkin əlillik təyin olunduğu halda, cari ilin 3 ayı ərzində 503 nəfərə ilkin əlillik təyin edilmişdir. Ümumilikdə dispanser qeydiyyatda olan əlillərin sayı Bakı şəhər əhalisinin 2%-ni təşkil edir.

Qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair Fəaliyyət Planının 9.3 bəndinin icrasını təmin etmək məqsədilə təhsil müəssisələrində müəllimlərin, tələbələrin, şagirdlərin, Valideyn-Müəllim Assosiasiyasının üzvlərinin və tibb işçilərinin iştirakı ilə “Sağlam həyat tərzi”, “Sağlam qidalanma”, “Zərərli vərdişlərlə mübarizə” mövzularında mütəmadi olaraq maarifləndirici görüşlər keçirilir. Eyni zamanda, doğuşayardım tibb müəssisələrində fəaliyyət göstərən hamilə məktəblərində və uşaq poliklinikalarında tibb işçiləri tərəfindən hamilə və zahılarla körpələrin sağlam böyüməsi üçün ana südü ilə qidalanmanın vacibliyi barədə müvafiq sanitar maarifi işi aparılır. Həmçinin İSİM-in təşəbbüsü ilə vaxtaşırı təşkil olunmuş seminarlarda tibb işçilərimiz fəal iştirak edir.

Sizə məlumdur ki, 2020-ci ildən etibarən Respublikamızda İcbari Tibbi Sığortanın tətbiq olunacağı barədə Cənab Prezidentin Fərmanı vardır. Artıq Respublikamızın 3 rayonunda - Yevlax, Mingəçevir və Ağdaşda pilot layihə həyata keçirilir. Səhiyyə Nazirliyi ilə Tibbi Sığorta Agentliyinin qarşılıqlı əməkdaşlığı nəticəsində müvafiq sənədlər hazırlanır. Tibbi kadrların təkmilləşdirilməsi sahəsində müvafiq işlər görülür.

Məqsədimiz - Azərbaycanın sağlam gələcəyi naminə xalqımıza layiqli tibbi xidmət göstərməkdir. 17 İyun Səhiyyə işçilərinin peşə bayramıdır. Bu bayram günü münasibətilə bütün tibb sahəsində xidmət göstərən insanları təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

**Nelli VEYSOVA,**
**Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi.**